DOI: https://www.doi.org/10.36719/2663-4619/67/58-62

**İradə Xəlil qızı Zamanova**
Bakı Dövlət Universiteti
kiçik elmi işçi
zirada04@gmail.com
**Telli Tarıyel qızı İbrahimova**
Bakı Slavyan Universiteti
filologiya üzrə fəlsəfə doktoru, dosent
69_cicek_69@ rambler.ru

# İSTEDADLI UŞAQLARIN PEŞƏYÖNÜMÜ İŞİNİN TƏŞKİLİNDƏ TƏDRİS PROQRAMININ HAZIRLANMASI YOLLARI

***Açar sözlər:*** *peşəyönümü işi, isteadlı uşaqlar, tədris proqramı, maraq və ehtiyaclar*

## Curriculum development ways in the organization of carrer development for talanted children

**Summary**

This paper analyzed different existing programs for gifted education in the general education and discusses the issues and challenges experienced into the classroom. The main aim of this article is to describe main challenges in implementing curriculum of students' career development in the general education. The article presents modern curriculum development models that builds students' competences in different professions. The learning outcomes and new approaches in designing modern curriculum are explained. The experiment work has been implemented on developing students' career skills during the secondary education. The proposed curriculum development models introduced and could serve as a guide in the development of a curriculum for gifted students in all public schools across the country.

***Key words:*** *career guidance, talented children, curriculum, interests and needs*

Ümumi təhsildə peşəyönümü işinin təşkilində proqram materiallarının hazırlanması və həyata keçirilməsi vacib prioritetlərdən biridr. Təhsildə peşə seçimi, karyera məsləhətləri, planlaşdırma unikal həyat inkişafı məsələləri kimi qəbul edilməlidir. Peşəyönüm işinin müasir təşkli üzrə proqram tələbləri şagirdlərin peşəyönümü sahəsində meyil və maraqlarının ifadə edir və onlara karyera seçimlərini müəyyənləşdirmək, bir peşə seçimində qərar vermək üçün lazımlı bilik, məlumat, bacarıq və təcrübə əldə etmək üçün istiqamətləri təsvir edir (3; 5).

Son tədqiqatlar (Emmett & Minor, 1993; Hickson, 1992; Kelly, 1992; Kelly & Cobb, 1991) akademik qabiliyyətli şagirdlərin 63%-ə qədərinin peşəyönümü işi sahəsində üzləşdiyi çətinlikləri və karyera planlaşmalarında məsləhətə ehtiyacı olmasını sürür. Tədqiqat işi peşəyönümü işinin təşkilində aşağıdakı problemləri aşkar etmişdir:

- Tədris proqramın səriştə əsaslı təlim nəticələrin az uyğun olması
- peşəyönümü işini təşkilində proqramın fərdi maraqlara az cavab verməsi
- Peşəyönümü işi üzrə fənlərin tədrisində inteqrativliin az təmin edilmıəsi
- Peşəyönümü işinin təşklində proqramın fiziki mühitin yaradılmaması
- Proqram çərçivəsində peşəyönümlü fəaliyyətlərinin təşkilində olan boşluqların olması

Problemləri nəzərə alaraq, tədqiqat işi ümumi təhsil sahəsində peşəyönümü işin təşkilində effektiv proqram hazırlanmasını aktuallaşdırdı. Aparılan araşdırmalar peşəyönümü işinin məktəblərdən başlanmasını, proqram məzmununda əks olunmasını və təşkli prinsiplərinin həyata keçirilməsini vacib hesab edir. Müasir təhsildə peşəyönümü işinin təşkili uşaq yaradıcılığı, intellektual bacarıqların inkişafı, potensiallığın erkən yaşlarda baş verməsini nəzərə alaraq onların şəxsi xüsusiyyətlərinə həddindən artıq önəm verir. Bu baxımdan məktəb tədris proqramlarına

peşəyönümü işində fəaliyyətlərin seçimi, mürəkkəbliyini və tətbiqini istedadlı şagirdlərin qabaqcıl idraki və praktiki səviyyələrinə uyğunlaşdırmaq lazımdır (2;4;7).

1.1.Peşəyönümü işinin həyata keçirilməsində proqram tələbləri. Tədris proqramında peşəyönümü işi necə tərtib edilir?

Verilən sual ətrafında aparılan tədqiqat işi peşəyönümü işin təşklində müasir proqramların hazırlanması işini təhsildə şagirdlərin sosial, maddi və emosional rifahları ilə xarakterizə edir. Proqram məzmunu, şagirdlərin fərdi maraqlarına, bacarıqlarına və dəyərlərinə əsaslanaraq gələcək karyera işlərini araşdırmaq və planlaşdırmaq üçün istiqamətlənməlidir. Proqramın hazırlanması və tətbiqi məktəblərdə peşəyönümü işinə rəhbərlik etmək sahəsində akademik təcrübələrinin əlaqəsini artırır, karyera hazırlığını və idarəetməsini yaxşılaşdırır. Məktəblərdə istedadlı uşaqlar çətin öyrənmə tapşırıqları üzərində çox çalışmaq üçün fürsətlərə ehtiyac duyurlar (1;4;8). Peşəyönümü işini dəstəkləyən tədris proqramında əsas cəhətlər aşağıdakı kimi mühüm rol oynayır:

- Şagirdlırin maraqları, güclü və istəkləri
- Şagirdlırin nailiyyətləri
- Zəif nəticələnmə riski olan şagirdlər
- Şagirdlırin mövzu seçimləri və yolları barədə məlumatlı qərarlar

1.2. Peşəyönmülü proqram modeli – Qatsbi hesabatı

Tədris proqramı məktəbin təşkil etdiyi rəsmi təlimdən ibarətdir. Tədris proqramındakı peşələr, şagirdlərin gündəlik məktəb tədris proqramının bir hissəsi kimi peşə təhsili ilə qarşılaşmalarına imkan verən bir sıra mülahizələri təsvir edir. Pedaqoji araşdırmalarda amerikalı milyonçu alim Jay Qatsbinin peşəyönümü işinin mahiyyəti üzrə "Qatsby hesabatı" dünya pedaqogiksaında kimi özünəməxsus dərəcədə geniş istifadə olunmaqdadır. Bu yanaşma peşəyönümü işinin təşklinin effektiv tədris proqramı çərçivəsində öyrənilməsini təklif edir. Bu modeldə ümumitəhsil məktəblərində peşəyömlü işin özünəməxsus bir mövzu kimi təqdim edir. Qatsbi səkkiz göstəricisi məktəblərdə peşəyönümü işinin təşkilində proqram məzmununda nəzərə alınmalıdır:

•Sabit karyera proqramı
•Peşəyönümü işi və əmək bazarı məlumatlarını öyrənmək
•Hər bir şagirdin ehtiyaclarına cavab vermək
•Kurikulum öyrənməsini peşə ilə əlaqələndirmək
•İşəgötürənlər və işçilərlə görüşlər
•İş yerlərinin təcrübələri
•Əlavə və ali təhsil məzunları ilə görüşlər
•Öz peşəsinə şəxsi rəhbərlik

Bu modeldə tədris proqramında peşəyönümü işinin iki əsas məqsədi vardır:

1) təhsilalanların peşəyönümü işini öyrənməsi, inkişafı və rifahını təşviq etmək;
2) şagirdlərin mövzu üzrə və nailiyyətlərini və ümumi fərdi və sosial inkişaflarını artırmaq.

Bu məqsədlərə uyğun proqramda peşəyönmülü işin təşklində gələcəkdə karyera qurmağın üç əsas yolu göstərilir:

- Peşələrin öyrənməsini özünə uyğun bir mövzu olaraq təmin etmək;
- Peşələrin öyrənilməsinə aid mövzulara daxil etmək
- Peşə tədrisi üzrə proqramı ilə sıx əlaqəli zənginləşdirmə fəaliyyətlərini tərtib etmək

Tədris proqramındakı peşəyönümlü işin təşkili düzgün idarə olunduqda sabit bir peşə-karyera proqramı müəssisənin fəaliyyəti ilə birləşdirildikdə daha təsirli olur. Qatsbi hesabatına uyğun olaraq, məktəblər fərdi iş yerlərinin təcrübəsini, tədris proqramı fəaliyyətlərində peşələrlə yanaşı daha çox və daha yüksək təhsil ilə qarşılaşmağı əhatə edən inteqrasiya olunmuş bir karyera strategiyası və proqramını planlamalı və mütəmadi olaraq yenilənməlidir (7;9;11). Proqram müdaxilələrində peşəyönümü nəticəsində yaranan təsirlərin məhdud dəlilləri mövcuddur. Mövcud dəlillər təsirlərin aşağıdakı sahələrdə müşahidə oluna biləcəyini göstərir:

- şəxsi effektivlik məsələn özünə hörmət, motivasiya, şəxsi təmkin və özünəinamın yaxşılaşdırılması;

- peşəyönümü, kəşfiyyat bacarıqlarının yaxşılaşdırılması, peşələrin anlaşılması, qərar vermə və keçidlərə qərarlılıq və hazırlıq;
- təlim nəticələri davamiyyətin yaxşılaşdırılması və təlim nəticələrinin artırılması.

1.3.Peşəypnümlü məktəb proqramı – Filippin modeli (4;6).

Məktəblərdə istedadlılar üçün bir tədris planı hazırlamaq üçün Fillippin modeli problemin qoyuluşuna dəstək verən bir model kimi təqdim olunur. Kurikulum inkişaf modeli təqdim olunur:




**Sxem 1. İstedadlı uşaqlar üçün peşəyönümü işinin təşkili proqramı**

Hər bir tədris proqramının hazırlanması izlənilən proseslə uyğunlaşdırılır. Bu modelin özünəməxsusluğu dörd ilkin prosesin 1) situasiya təhlili, 2) tədris proqramının təhlili, 3) tədris fəlsəfəsi və hədəflərinin hazırlanması və 4) tədris planının hazırlanmasıdır. Tədris proqramının şairdlərin peşəyğnümü işinə təsiri ilk öncə, onların idrak, davranış və ya praktik fəaliyyətində ortaya çıxır. Proqramın zəngin məzmuna malik olması şagirdlərin istedadlarının artması və bir çox sahələrdə daxili yaradıcılığın məhsulu kimi əks oluması aşağıdakı kimi qeyd edilir:

- idraki, yəni özləri, karyeraları və oxuduqları mövzular haqqında düşündüklərini dəyişdirmək;
- davranış, yəni peşə idarəçiliyi, işə düzəlmə və təhsil bacarıqlarını inkişaf etdirmək;
- praktik, yəni müsbət, davamlı və şəxsən qiymətləndirilən istiqamətlərə uğurlu keçidlər etmələrini təmin etmək (3; 5).

1.4.Fərqli məzmunlu tədris proqramı

Tədqiqat işi peşəyönümlü işin produktivliyin nəzərə alaraq, onun inteqrativliyin əsas götürür və bu mənada "Fərqləndirilmiş təlim" proqramının vacibliyini əsas hesab edir. Müasir məktəblərdə cəmiyyətin və əmək bazarının tələblərinə cavab verən səriştələrin qazanılması və istedadlı şagirdin ehtiyaclarını təmin etmək üçün fərqləndirilmiş proqramlar bir neçə məsələni həll edilməsində vacib rol oynayır. Tədris proqramının bir çox aspektini əhatə edən bu proqram modeli fərqli bacarıqların qazanılması üçün mühüm mənbədir. Tədris proqramı, istedadlı uşaqlar tanınmasında mühüm rol oynayan xüsusiyyətləri nümayiş etdirmək imkanı qazandırır, onları akademik və ya sosial səriştələr əldə etməyə həvəsləndirir.

İlyasov M., S.M.Muradov peşəyönümlü işin təşkil etmək üçün tədris proqramının fənlərarası olması lazım olduğunu təklif edirlər (5;6;7). Bir-birinə bənzəməyən istedadlar idrak və sosial ehtiyaclarını həll etmək üçün proqram təlimatı təcrübələrin dəyişdirilməsini lazımlı hesab edir. C.Tomlinson'a (1999) görə, bu fərqləri təmin etmək üçün proqramda strateji üsullar elə seçilməlidir ki, uşaqların inkişaf edə biləcəyi bir mühit təmin edilsin. Məsələn, musiqi və rəsm bacarıqlarını nümayiş etdirən uşaqlar üçün dərslərin təşkli riyazi-hesablama peşəsinə marağı olan uşaqların dərslərindən fərqli olaraq əyləncəli bir mühitdə olmalıdır. Texniki peşə sahibi olmaq istəyənlər isə

müasir texnologiyaların təmin olunduğu mühitdə daha tez yetişirlər və maraqları daha tez üzə çıxır. Əl əməyi və ya yaradıcılıq işlərinin qazanılmasında fiziki mühitin düzgün təminatı əsas şərtdir. Tətbiq olunacaq tapşırıq və fəaliyyətlər müxtəlif məzmuna malik olması fərqli proqramlar daxilində aşağıdakı tələbləri reallaşdırır (9;10;11):

1) Fərqli məzmun və təlim nəticələrinin müəyyən edilməsi
2) Peşəyönümü işinin strateji təşkli prinsipləri
3) Müəllim-şagird münasibətlərinin düzgün qurulması
4) Peşəyönümü işinin qiymətləndirilməsi

1.5.STEM-peşəyönümü işinin təşkilində ən yaxşı proqram nümunəsi kimi

Peşəyönümlü işin təşkili üzrə müasir STEM proqramı şagirdləri gələcəkdə elm, texnologiya, mühəndislik və riyaziyyat (STEM) məzunlarına çevirir və tələbin proqram daxilində STEM fənlərindəki cəlbedici, mənalı, layiqli peşələrə stimullaşdırır. STEM-in verdiyi fürsətlər bütün uşaqların diqqətinə çəkilməlidir. STEM təhsil metodu şagirdlərər dörd spesifik sahənin, Elm (Science), Texnologiya (Technology), Mühəndislik (Engineering) və Riyaziyyatın (Math) birgə və inteqrasiya olunmuş şəkildə tədris edir. STEM proqramı fənlərarası, praktik və tətbiqi dərslərdən ibarətdir. STEM dörd fərqli fənni real həyatda tətbiq olunan formada və vahid paradiqma kimi öyrədir. Elmin və texnologiyaların öyrədilməsində ənənəvi yanaşmadan fərqli olaraq, STEM proqramı praktik məşqələlər vasitəsilə elmi-texniki biliklərin gündəlik həyatda necə tətbiq olunmasını şagirdlərə göstərir. Bu proqram modeli şagirdlərəə mühəndislik səriştələri öyrədərək, onların real həyatda problemlərin həlli zamanı tətbiqini aşılayır. STEM fənləri tələbələrə hansı peşə seçmələrindən asılı olmayaraq, onları həyata hazırlayır (12;13).

1.Tədqiatın metodologiyası

Peşəyönümü işini təşkilində proqram materiallarının hazırlanması işinə münasibət və yanaşmaların, və yeni proqram nümunələrinə tələbatın öyrənilməsi tədqaiat işinin eksperiment mərhələsində həyata keçirildi. Tədqiqat üçün 10 baş müəllim, 4 rəhbər işçi və peşə sahəsi üzrə 1 məsləhət rəhbəri, 12 müəllim və 28 tələbə iştirak etdi. Məktəbdə peşəyünümü işinə oğlan və qızların münasibəti strateji seçmə üsulu istifadə edildi, ardından sadə təsadüfi seçmə üsulu tətbiq edildi və qarışıq məktəblərdə gender balansını təmin etdi.




**Sxem 2. Tədris proqramında peşəyönümlü işin təşkili üzrə mövcud vəziyyət**

Birbaşa müşahidələr üçün tədqiqatçı tədris metodikasını və resurs materiallarından istifadəni müşahidə etmək üçün bəzi məktəblərdə təsadüfi seçilmiş dərslərdə iştirak etmək üçün icazə istənildi. Şagirdlərin anketində onların maraqları, inteqrativ dərslərə cəlbi, münasibətləri, motivasiya mənbəyi və yaşadıqları akademik problemlər haqqında məlumat vermək məqsədi daşıyırdı. Müəllimlərin sorğusu əsasən proqramda təlim nəticələrinin və tədrisdə peşəyönümlü fəaliyyətlərin tətbiqi üzrə sorğular idi.

## Nəticə

Məktəblərdə istedadlı şagirdlərin peşəyönümü işinin təşkili vacibdir. Ölkədə istedadlı təhsilin inkişafı üçün bir neçə proqram həyata keçirilir. Tədqiqat dövlət məktəblərindəki istedadlı təhsilə yönəlmişdir. Dövlət məktəblərində mövcud istedadlı proqramlar STEM-də cəmləşdirilir, digər məktəblər isə istedadlıları tədris edərkən zənginləşdirmə fəaliyyətləri və təlim yanaşmalarından istifadə edirlər.

## References

1. Akos P., Charles P., Orthner D., and Cooley, V. Teacher perspectives on career-relevant curriculum in middle school. RMLE Online, 34(5), 2011, 1-9.
2. Arnold K., Noble K., & Subotnik R. (1999).To thine own self be true: A new model of female talent development. Gifted Child Quarterly, 43, 140–147.
3. Barnes A., Bassot, B and Chant C. An Introduction to Career Learning and Development Perspectives, Practice and Possibilities. London: Routledge. 2011, 11-19
4. D.Thomas (1985), The Determinants of Teachers Attitude to Integrating the Intellectually
5. İlyasov M. Basics of professional orientation. Textbook. Baku: Mutarjim, 2011 p.22-34
6. Kirk S.A (1972). Education of Occupational Children. second edition, Boston, Houghton, Miffin Company. p.123-312
7. Hollenger C.L. (1991). Facilitating the career development of gifted young women. Rueper Review, 13, 135-139.
8. Karatas FO, Micklos A, Bodner GM. (2011). Sixth-grade students' views of the nature of engineering and images of engineers. Journal of Science Education and Technology, 20(2), 123–135.
9. Kelly K., & Cobb S. (1991). Aprofile of the career development characteristics of young gifted adolescents: Examining gender and multicultural differenves . Roeper Review, 13, 202-206.
10. Orqanization of vocational quidance: "a conference on the promotion of vocational education" – the Ministry of Education of the Repablic of Azerbaijan and the Evropean Union - Hayatt Regency 2018, p.18 -42.
11. Pyryt, M.C. (1993). Career development for the gifted and talented: Helping adolescents chart their futures. Journal of Secondary Gifted Education, 5, 18–22.
12. Rules of implementation of vocational in general education institutions – Decision No.167 of the Cabinet of Ministers of the Republic of Azerbaijan, May 12, 2020.
13. https://files.eric.ed.gov/fulltext/EJ1207237.pdf

Göndərilib: 16.06.2021 Qəbul edilib: 21.06.2021